# Göyərtdiyi ölməzliyin, yenilməzliyin...

**İnsan var ki**

İnsan var ki, qarşılaşdığı, eşitdiyi hər hadisəyə, xəbərə etinasız olur, insan var ki, hər şeyə diqqət yetirir və uzun müddət, bəzən də bir ömür boyu o hadisələr yaddaşına iz salır, bəzən də həkk olur. İnsan var ki, əməlləri, yaşadığı həyatı ilə müddətindən asılı olmayaraq insanlar arasında əbədi yaşam qazanır, insan var ki, əsrə yaxın ömür sürür, ancaq həyatdan köçəndə belə adi çətinliklə xatırlanır və ya az bir vaxt ərzində unudulur. O dünyasına qovuşduqdan sonra belə insanlıq xüsusiyyətləri ilə seçilənlər könüllərdə yaşayır, pislik və laqeydliklərlə dolu yaşayanlar isə elə əməlləri ilə də xatırlanırlar.

Ancaq bəşər tarixində elə ömür yaşayanlar var ki, hər gün, hər an, nəsilbənəsil, əsrbəəsr adları unudulmur, əməlləri, həyatları örnək olur. Onlara tarixin yaddaşında iz salanlar deyərlər. Tarixə elmi, siyasəti ilə iz salanlar, xalqı, yaşadığı torpaq uğrunda igidliklər göstərənlər məhz belə xarakterlilərdir. Elmi sübutlarla xalqın firavan yaşayışı, dövlətinin daxili və xarici siyasətinin doğru və düzgün aparılması yolunda mübarizlər və onların ömür yolu insanlıq zirvəsində özünəməxsus yer alır. Ancaq torpaq, Vətən uğrunda çox gənc yaşlarından ölümün gözünə dik baxanlar, bahar ömrünü elə bahar çağlarında "donduranlar", Vətən yolunda canını qurban verənlər əsil, həm də ən uca titul qazanırlar. Bu Şəhid adı, Şəhid tituludur. Bu adı isə hər kəs qazana bilməz. O ad qayalarda mamır olub bitənlərə məxsusdur.

I Qarabağ Müharibəsindən sonra dünyaya göz açan hər bir körpənin danışıq dilində "işğal", "qaçqın", "məcburi köçkün" sözləri özünə yer aldı. Bu körpələr böyüdükcə Vətən torpaqlarının 20 faizinin işğal altında, eloğlularının əsirlikdə yaşaması, torpaqlarına şəhid qanı hopması kəlmələrini eşidərək və buna rəğmən müharibədə məğlub ölkənin vətəndaşı kimi böyümüşlər. Böyüdükcə bu məğlubiyyətin səbəblərini araşdırmaq və lazım gəlsə, müharibə yolu ilə torpaqlarımızı azad etmək üçün mübariz əsgər kimi yetişmişlər. Həmçinin I Qarabağ Müharibəsinin "səhvlərini" təkrarlamamaq üçün vahid orduda, Ali Baş Komandanın siyasətini dəstəkləyərək birləşmişlər. Yekdil əqidə ilə Vətənin, dövlətin işğaldan təmizlənməsi uğrunda mübarizlər kimi yetişmişlər.

Bu isə illər sonra, məhz 2020-ci ilin sentyabr ayının 27-də ölkə rəhbəri, Ali Baş Komandan İlham Əliyevin Qisas müharibəsinə başlamaq üçün Dəmir yumruq altında birləşməsi və müharibə yolu ilə torpaqlarımızın işğaldan təmizlənməsi üçün xalqa müraciətində özünü əyani surətdə sübut etdi. Ordu sıralarına könüllülərin axını başladı. Gənclər döyüşlərdə iştirak etmək, Zəfər çalmaq üçün inamla müharibəyə - döyüşlərə qoşulmaq istəyirdilər. Məhz belə gənclərdən biri idi Mikayıl.



**Ekizlərdən biri**

Mikayıl Əhmədov Qəbələnin Savalan kəndində 1993-cü ildə, iyulun 24-də dünyaya göz açmışdır. Atası Hümbət və anası Qiyamət Əhmədovlar kənddə zəhmətkeş, insanlığı ilə hörmət qazanan insanlardır. Ailədə 7 uşaq - 4 qız, 3 oğlan böyümüşdür. Aysel, Günel, Tariyel, Günay, Ülviyyə və ekizlər - Mikayıl, Rəfael. Mikayıl kənd məktəbinə getmiş, IX sinfi bitirmiş, əmək fəaliyyətinə başlamışdır.

2011-ci ildə həqiqi hərbi xidmətə çağırılmış, elə məhz ad günü olduğu tarixdə də əsgəri xidmətə yollanmışdır. Mikayıl 2013-cü il yanvarın 1-də əsgəri xidməti başa vurub öz kəndinə qayıtmışdır. Əsgəri xidmətdən gəldikdən sonra bir müddət böyük qardaşı Tariyellə birgə Qəbələ konserv zavodunda işləmiş, sonra isə qardaşı ilə Krım şəhərində əmək fəaliyyətini davam etdirmişdir. Bir neçə il Krımda işlədikdən sonra qardaşı ilə birlikdə Vətənə dönmüş və kəndlərinə yaxın olan Ağdaş rayonunda karyerdə işləmişdir. İşlədiyi müddətdə həmişə kollektivin hörmətini qazanmış, öz çalışqanlığı, vətənpərvərliyi, dürüst və ağıllı düşüncə tərzi ilə ətrafındakı insanlardan seçilmişdir.

2020-ci ilin iyul - Tovuz hadisələri, burada şəhid olan hərbçilərimizin igidliyi onu Vətən uğrunda döyüşlərə, yad tapdağında olan torpaqları azad etmək üçün məhz həmyerlimiz, general Polad Həşimov və onun kimi igidlərin davamçısı olmağa, ölümdən qorxmayaraq onların mübarizəsinin davamçısı olmaq arzusuna bir daha sövq etdi.

Sentyabr ayında prezidentimizin müraciətinə sidq ürəklə səs verdi: - könüllü ərizəsi ilə hərbi komissarlığa müraciət etdi. Anasının ürək çırpıntısını sakitləşdirmək istəyən Mikayıl: - Bax, ana, qonşumuz evin tək oğlu döyüşlərə gedib, biz 3 qardaş kənarda qala bilmərik ki! Biz də döyüşlərdə iştirak etməliyik. Ya qələbə çalmalıyıq, ya şəhid olmalıyıq. Çünki Vətən bizə oğul deyir!

Çağırış vəsiqəsi gələnə kimi dəfələrlə əsgərlərə lazımi əşya və avadanlıqlar aparan Mikayıl oktyabrın 5-də cəbhə bölgəsinə yollandı. Şəhid silahdaşlarının qanını yerdə qoymayaraq igidliklə döyüşdü.

Qəlbi arzularla - həyat dolu bir gənc idi Mikayıl! Fərqli, özünəməxsus fərdi xüsusiyyətləri, həyatabaxışı var idi. Hətta ekiz qardaşından belə fərqli xüsusiyyətləri ilə seçilirdi.

**Ünvanlı arzu**

Hər bir gəncin ta uşaqlıqda qəlbi arzu yelkəninə bənzər. Bu arzular ilə insan həyatı «yelkənli gəmi» kimi müxtəlif istiqamətlərdə «yırğalansa da» bir arzunun sorağına düşüb nəhayət bir ünvana çatdırar.

Bir gənc kimi həyat sevgisi dolu bir idi Mikayıl. Qəlbinin arzuları da qalaq-qalaq. Ancaq ən başlıcası o idi ki, qalibiyyətli, zəfər qazanmış və güclü bir dövlətin vətəndaşı olmaq, qalib bir dövlətə məxsus xalqın övladı kimi tanınmaq istəyirdi. Köhnə tarixi yenidən yazmaq, qaçqınsız, məcburi köçkünsüz, bütöv bir Azərbaycan xalqının övladı adını daşımaq idi onun ən ümdə arzusu. O, bu arzusu uğrunda tarix yazan oğullardan biri oldu. Bu isə onun ünvanlı arzusu idi...

Vətən uğrunda şəhid, qazi olmağın müqəddəsliyini daha dolğun dərk etdiyi üçün ünvanlı arzu uğrunda ölümdən belə qorxmadı Mikayıl.

Noyabrın 2-də Şuşa uğrunda gedən döyüşlərdə şəhadətə qovuşdu Mikayıl. Zəfərə bir neçə gün qalmış... Zəfər paradının iştirakçısı cismən olmasan da göy üzündə qürurlu ruhların arasında sən də var idin. Arzu ünvanına çatmış, insanlığın ən ali rütbəsi olan şəhid adı almışdın! Şəhid olmaq isə Vətən uğrunda döyüşlərə gedəndə əzizlərinə dediyin kimi, arzun, istəyin idi...

Mikayılın şəhid xəbəri noyabrın 2-də çatdırıldı əzizlərinə. Məmməd Araz şeirlərində deyildiyi kimi:

***Avazıdı qara torpaq,qaraldı ağ su,***
***Hər ocağa bu xəbərin ayazı getdi...***

Ata, ana bağrı yandı, qocaldı. Bacıların, qardaşların qanı dondu sanki bu xəbərdən... Ekiz qardaş Rəfael bir parçasını itirdi...

Acılar acımasız... Qürur isə qədərsiz... Bir dövlət bayrağını özünə libas seçən yaraşıqlı bir gənc... Bahar ömrü və ömrü əbədiyyən baharlaşan Mikayıl. Valideynlərinin arzusunu gözlərində donduran oğul bala! Sən qazandığın o ad titulların ən alisi! O ad hər kəsə nəsib olmaz!

Başını uca tut, qəlbinin acıları, yanğısı sonsuz olsa belə! Oğlun tək sənin yox, bu xalqın övladı, qəhrəmanı, yeni tarix yazan tarixçisi! Məkanın cənnət olsun qəhrəmanım!

***Ölçülərə boy vermədi əyilməzliyin,***
***Boz, qranit qayalarda duruşu təkdi.***
***Göyərtdiyi ölməzliyi, yenilməzliyin,***
***Əkinçisi Mikayıldı, barı Vətəndi.***

Mikayıl Əhmədov noyabrın 3-də doğulduğu kənd qəbristanlığında dəfn olunub. O həmişə qəlbimizdə yaşayır, yaşayacaq.

**Afət İSRAYILOVA,**
**Qəbələ şəhəri.**

# Tədris ili uğurla başa çatdı

Şəki-Zaqatala RTİ-nin Qəbələ Rayonu üzə Təhsil Sektorunun tabeçiliyində olan ümumtəhsil məktəblərinin 2023-2024- cü tədris ili başa çatmışdır. Tədris ili dövründə Təhsil Sektoru tərəfindən rayonun təhsil müəssisələrində daima reydlər və monitorinqlər aparılmış, çatışmamazlıqlar barəsində məktəb rəhbərlərinə aidiyyatı tapşırıqlar, bəzilərinə intizam tənbehi yaxud tutduğu vəzifədən azad edilməsi ilə bağlı təqdimatlar verilmişdir.

Məktəblərin fəaliyyətinin qiymətləndirilməsi zamanı IX, XI sinif şagirdlərinin buraxılış, həmçinin XI sinif şagirdlərinin qəbul imtahanlarındakı nəticələri Elm və Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş, ümumtəhsil məktəblərinin reytinqləri, şagirdlərin respublika səviyyəli müsabiqələrdə, fənn olimpiadalarındakı nəticələri əsas götürülmüşdür. Rayonun bir sıra məktəblərində əsas fənlərin tədrisi vəziyyəti, ibtidai təhsil səviyyəsində tədris prosesinin gedişi araşdırılmış, nöqsan və çatışmamazlıqların nəticələri həm məktəblərdə, həm də sektorun iclaslarında geniş müzakirə edilmişdir.

Tabelik üzrə ümumi təhsil müəssisələrində dərs ilinin əvvəlində şagirdlərin sayı 16631, dərs ilinin sonunda 16575 nəfər olmuşdur. Cari tədris ilində I sinfə 1418 şagird qəbul olunmuşdur. Tədris ilinin sonunda biliyi qiymətləndirilənlərin sayı 15157, müvəffəq qiymət alanlar 15124, qeyri müvəffəq qiymət alanlar 33 nəfər olmaqla müvəfəqiyyət göstəricisi 99.78 % olmuşdur. 1196 nəfər məktəbin hazırlıq qruplarına cəlb olunmuşdur. 1505 şagirdə ümumi orta təhsil haqqında, 1230 şagirdə tam orta təhsil haqqında attestat verilmişdir.

7 aprel 2024-cü il tarixində ümumi (9 illik) orta təhsil bazasında ümumtəhsil müəssisələrində təhsilalanların yekun qiymətləndirilməsi imtahanları 6 imtahan mərkəzində təşkil olunmuşdur. Ümumi orta təhsil səviyyəsini bitirən 1563 şagirddən 1494 nəfəri imtahanda iştirak etmişdir. İmtahanda iştirak edən şagirdlər 3 fənn üzrə (ana dili, riyaziyyat, xarici dil) imtahan vermişlər.

Tam (11 illik) orta təhsil səviyyəsi üzrə yekun qiymətləndirilmə (buraxılış) imtahanları bir mərhələdə keçirilməklə 01 mart 2024-cü il tarixində 6 imtahan mərkəzində təşkil olunmuşdur. Tam orta təhsil səviyyəsi üzrə məktəbi bitirən 1222 nəfər şagirddən 1206 nəfəri imtahanlarda iştirak etmişlər. Onlar ana dili, riyaziyyat və xarici dil fənləri üzrə imtahan vermişlər. XI siniflər üzrə buraxılış imtahanlarının nəticələrinə görə respublika üzrə maksimum (300 bal) nəticə göstərən 14 nəfər məzundan 6 nəfəri Şəki-Zaqatala RTİ -nin tabeçiliyində olan təhsil müəssisələrinin şagirdləridir.

-Elşən Yusibov - Həmzəli kənd tam orta məktəbin XI sinif şagirdi

-Səidə Rəhimova-Nohurqışlaq kənd tam orta məktəbin XI sinif şagirdi

-Lalə Xancanova- Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin XI sinif şagirdi



Adları qeyd olunan şagirdlərin ali məktəblərə qəbul imtahanı balı ilə birlikdə topladığı ballar uyğun olaraq 682, 681, 672 olmuşdur.

2023-2024-cü tədris ilində ali və orta ixtisas məktəblərinə sənəd verən 773 məzundan 35 nəfəri 600- dən yuxarı bal toplamışdır.

2024-cü ilin I yarım ilində keçirilmiş Respublika fənn olimpiadasının final mərhələsində iştirak edən 13 şagirddən 3 nəfəri yüksək nəticə göstərərək olimpiada qalibi (bir gümüş, iki bürünc) adını qazanmışdır.

Cari ildə yeni məktəb binası və əlavə sinif otaqlarının tikintisi, əsaslı və cari təmiri işləri xüsusi diqqət mərkəzində olmuşdur. Belə ki, 2003-2024-cü illər ərzində 68 ümumitəhsil məktəbinin 39 u yeni məktəb binası ilə, 11 ümumitəhsil məktəbi isə əsalı təmir edilmişdir. Son iki ildə dövrün ən müasir tələblərinə uyğun Nic qəsəbə 1, Nic qəsəbə 4 saylı tam və Bum qəsəbə tam orta məktəbi üçün uyğun olaraq 225, 360, 624 yerlik yeni məktəb binasının tikintisi başa çatdırılmış və şagirdlərimizin ixtiyarına verilmişdir.

Növbəti tədris ilinə hazırlıqlarla əlaqədar Bılıx kəndində yeni məktəb binasının tikintisi, Qəbələ şəhər 2, 4 nömrəli, Bayramkoxalı, Mamaylı, Mirzəbəyli kənd tam orta məktəblərində, Şəhər 1 nömrəli körpələr evi uşaq bağçasının, Bayramkoxalı, Nohurqışlaq kənd uşaq bağçalarında cari təmir işləri nəzərdə tutulmuşdur.

Məktəblərin ixtisaslı pedaqoji kadrlarla tam təmin edilməsi ilə bağlı Şəki Zaqatala Regional İdarəsinə 15 ixtisas üzrə 137 müəllimə ehtiyac olduğu barədə müraciət edilmişdir. Çıxarılmış vakant iş yerlərində 16 yer müsabiqədən keçən müəllimlər tərəfindən tutulmuş və hal-hazırda digər vakant olan yerləri tutan və müsabiqədən keçən müəllimlərin sənədlərinin toplanılması prosesi davam edir.

**Yaşar NƏZİROV,**
**Qəbələ Təhsil Sektoru.**